# Müstəqilliyimiz əbədidir: Azərbaycan Respublikası dünya birliyində artıq özünə layiq yer tutubdur

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 8-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1995-ci il iyunun 23-dən sentyabrın 20-dək olan dövrü əhatə edir. Nəşrə Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib.**




Kitabda Ümummilli Lider Heydər Əliyevin 1995-ci il 15-17 mart hadisələrinə həsr olunmuş toplantıda geniş nitqi, Bolqarıstan və Rumıniyaya səfərlərinə dair materiallar verilib. Bolqarıstan Xalq Məclisində nitq söyləyən Ulu Öndər Heydər Əliyev Azərbaycanın çoxmillətli respublika olduğunu, burada yaşayan bütün xalqların milli mənsubiyyətindən, dilindən, dinindən, siyasi baxışından asılı olmayaraq, eyni hüquqa malik olduğunu diqqətə çatdırıb. Həmin nitqində Ümummilli Lider Azərbaycanın dünyada layiqli yer tutduğunu vurğulayaraq deyib: "Azərbaycan Respublikası dünya birliyində artıq özünə layiq yer tutubdur, beynəlxalq təşkilatların əksəriyyətinin üzvüdür və bu təşkilatlarda öz sülhsevər, mütərəqqi xarici siyasətini həyata keçirir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bundan sonra da qoruyacaq və bir müstəqil dövlət kimi, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr yaradılması yolu ilə gedəcəkdir".

Çoxcildliyin 8-ci kitabına Ümummilli Lider Heydər Əliyevin Buxarestdə Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı üzvlərinin dövlət və hökumət başçılarının Zirvə toplantısında nitqinin mətni də daxil edilib.

Ulu Öndər Heydər Əliyev iştirak etdiyi bütün tədbirlərdə, dövlət və hökumət başçıları ilə görüşlərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox insanın doğma yurdundan didərgin düşdüyünü, həmçinin erməni işğalçı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin həyata keçirilməsinin vaxtı çatdığını vurğulayıb.

Oxucular bu kitabda Ulu Öndərin Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın iclasında nitqinin mətni ilə də tanış ola bilərlər.

Dahi rəhbər Heydər Əliyev 1995-ci il avqustun 18-də Məhəmməd peyğəmbərin mövludu günü münasibətilə Təzədir məscidində dindarlarla görüşüb. Həmin görüşdə Ümummilli Lider gələcək nəsillərin də İslam yolu ilə getməsinin vacibliyini bildirib: "Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Ona görə ki, bizim müqəddəs "Qurani-Kərim" kitabımız var. Ona görə ki, biz müsəlmanlar Allahın qoyduğu yol ilə, Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedərək nailiyyətlərdən-nailiyyətlərə çatmışıq. Bu günlər biz bir daha Məhəmməd peyğəmbərin qoyduğu yola sədaqətimizi, hörmətimizi, ehtiramımızı bildiririk. Bir daha dua edirik ki, bütün gələcək nəsillər də bu yolla getsinlər. Həyatımızda rastlaşdığımız çətinliklərdən çıxmaq üçün Allah-taala, müqəddəs İslam dinimiz bizə dayaq olsun, kömək olsun. Müstəqil Azərbaycan Respublikası öz tarixinin mürəkkəb bir dövrünü yaşayır. Bu dövrün çox müsbət, xoşbəxt cəhətləri də var. Eyni zamanda ağır, çətin, kədərləndirici cəhətləri də var". Ümummilli Liderin nitqinin mətni 8-ci clddə verilib.

Bu nəşrdə Ümummilli Lider Heydər Əliyevin respublikada kənd təsərrüfatının inkişafı və aqrar islahatların həyata keçirilməsi məsələlərinə həsr olunmuş geniş müşavirədə nitqi də yer alıb.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

Azərbaycan. - 2025.- 22 iyun (№ 127).- S.2.